## Səfir Vada Cəlilabad və Astara rayonlarında həyata keçirilmiş 2 “Ot Kökləri” Yardım Layihəsinə baxış həyata keçirdi.

27 aprel tarixində Yaponiyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri VADA Cuniçi 2019-cu il “Ot kökləri və İnsan Təhlükəsizliyi” Qrant Yardım Proqramı çərçivəsində həyata keçirilmiş layihələrə baxış ilə bağlı Cəlilabad və Astara rayonlarına səfər həyata keçirdi. Səfər zamanı “Cəlilabad rayonunun Xanəgah kəndində tibb məntəqəsi tikintisi” və “Astara rayonunun Hamoşam və Ojakəran kəndlərində tibb məntəqəsinin tikintisi” layihələrinə baxış həyata keçirildi.

Cəlilabad rayonunun Xanagah kəndində tikilmiş tibb məntəqəsi 2020-ci ilin avqust ayından, Astara rayonunun Hamoşam və Ojakəran kəndlərində inşa edilmiş tibb məntəqələri isə 2020-ci ilin sentyabr ayından istifadəyə verilmişdir.







